Qarabağ savaşı ekranda

# Acı tale, şirin ümid

**Bir qadının həyatına müharibə necə təsir edə bilər? Xəyal Rzanın "Maya" filmi bu suala cavab cəhdidir. Bu film hər iki Qarabağ savaşının "yükünü" çiyinlərində daşımış Maya Quliyevanın hekayətindən ibarətdir.**

Statik kameranın önündə öz həyatını danışan Maya bütün gerçəkləri boyasız-filansız, öz həqiqi rəngində dilə gətirir. Onun monoloqu ağrı-acı ilə doludur. Gənc yaşında atasını itirən, işsiz qalmış anasının öhdəsindəki ailədə böyüyən Maya nə uşaqlıq, nə də gənclik zövqlərini dadmayıb. Doğulduğu Ağdamdan uzaq düşməyə məcbur olub. Köçkünlük həyatı onu çox sınaqlara çəkib. Filmdə yaxın tariximizin acı həqiqətləri hər rakursdan işıqlandırılır.

Maya bizə meqapolis olan Bakıya ilk dəfə gələn, müəyyən çaşqınlıqlar, sarsıntılar keçirən köçkün insanların çətin günlərini də çəkinmədən anladır. Divarları adi parçadan olan, od düşüncə alışıb-yanan çadır "ev"lərdə yaşayan adamların yarızülmət həyatı göz önündə canlanır. Belə şəraitdə yaşayan Maya erkən ərə getməli olur. Qaçqınlar üçün yardım paylayan bir qurumda işləyən ərəb əsilli Mahmud Hassan onunla evlənir. İlk vaxtlar özünü nisbətən xoşbəxt saysa da, Azərbaycan və ərəb cəmiyyətlərindəki fərq Mayanın həyatına təsirsiz ötüşmür. Bərdə çadır şəhərciyindən bina evinə köçərək, yaşayış yerini dəyişsə də, acıları dəyişməz qalır.




Ailə həyatında dünyagörüşü başqa olan Mahmudla çoxlu mübahisələri düşür. Axırda o, çək-çevirlərə dözməyərək, Mahmuddan ayrılmalı olur. İki oğul övladı olan ana yenə də çətinliklər girdabında çabalayır. Amma dözüb durur. Tədricən böyük oğlu Xalid onun üçün, özünün dediyi kimi, ilk növbədə qardaş, dost rolunu oynayır. Amma Xalid Vətən müharibəsinə yollanır və şəhid olur…

Maya oğlu Xalidin şəhidliyindən yana-yana danışsa da, səbrli görünür. Bu da onun daxili aləmindən boy göstərən inanca bağlı məsələdir. Bütün varlığı ilə oğlunun cənnətməkan olmasından təsəlli alır. Xalidin müharibəyə könüllü qoşularaq Azərbaycan və "Qarabağ" futbol komandasının bayraqlarını özü ilə əmanət kimi aparması onun parlaq obrazını əks etdirir. Xalidin ən böyük arzusu bu bayraqları Şuşada dalğalandırmaq idi. Amma Zəfər gününə 5 gün qalmış o, şəhadətə yüksəlir.

Maya yenidən yaşamaq uğrunda mücadilə edir, çətinliklərə sinə gərir. Özü üçün deyil, kiçik oğlu Ömərin və Xalidindən yadigar qalan Məryəmin xatirinə yaşamalı olduğunu bilir.

Sonda savaş ağrıları ilə qıvrılan, yaraları sağalmayan Maya nəvəsi Məryəmə bir göyərçini əmanət verir. Sülhün rəmzi olan quş gələcək qadının bu həyatda savaş acısını çəkməməsi diləyini ifadə edir…

"Maya" filmi bütövlükdə müharibələrin insan həyatına təsiri haqqında düşündürücü filmdir. Ekran işində Vətənə sevgi hissi təbii şəkildə əksini tapıb. Filmdən gələnən nəticə bundan ibarətdir ki, həyatda sülh hər şeydən vacibdir. Xəyal Rzanın filmi dünyada sülh arzusunu gerçəkləşdirən ekran işidir.

***Ceyhun MİRZƏLİ***

Xalq qəzeti.- 2023.- 24 sentyabr.- S.10.